Lütfi Zadə adına məntiq olimpiadasının nəticələri elan edilib. Nəticələrə əsasən, iştirakçılardan 60 nəfər qalib elan edilib.

Qaliblərin siyahısı ilə **olimpiada.edu.az** saytından tanış ola bilərsiniz.

Təkilf və iradlarla bağlı rəsmi müraciətlər 3 iş günü ərzində müvafiq yerli təhsili idarəetmə orqanlarına təqdim edilə bilər.

Qeyd edək ki, sözügedən olimpiada Azərbaycan və rus bölmələri üzrə V sinif şagirdləri arasında təşkil olunub. Müsabiqənin keçirilməsində məqsəd görkəmli alim Lütfi Zadənin irsinin şagirdlər arasında təbliği, həmçinin, şagirdlərin məntiqi biliklərinin inkişafına təkan vermək, yaradıcı istedad və fərqli düşünmə qabiliyyəti ilə fərqlənən şagirdləri aşkara çıxarmaq və onların həvəsləndirilməsindən ibarətdir.